ALTINCI ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN DEPUTATI

№ VI/120-98/dP

"11" iyun 2021-ci il.

**Azərbaycan Universitetinin rektoru**
**Səadət xanım Əliyevaya**

**Hörmətli Səadət xanım,**

Azərbaycan Universitetinin yaradılmasının 30-cu ildönümü münasibətilə Sizi və universitetinizin kollektivini səmimi-qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Universiteti 30 ildə böyük inkişaf yolu keçib. Qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün universitet davamlı olaraq yeni layihələr üzərində işləyir. Bu gün tədrisin təşkili, tələbələrin qiymətləndirilməsi Avropa Kredit Transfer Sisteminin tələblərinə uyğunlaşdırılıb. 2019-cu ildə İSO 9001:2015 "Keyfiyyət İdarəetmə Sistemi" sertifikatını əldə edən Azərbaycan Universitetində bu gün tədris və idarəetmə beynəlxalq standartlar əsasında təşkil olunur.

Azərbaycan Universiteti kompüter biliklərini beynəlxalq səviyyədə təsdiq edən ECDL (Europen Computer Driving Licence) sertifikat proqramının Azərbaycandakı rəsmi Akkreditasiya Olunmuş Test Mərkəzi kimi fəaliyyət göstərməklə yanaşi, ingilis dili biliklərini beynəlxalq səviyyədə təsdiq edən PTE (Pearson Test of English) proqramının imtahan alt mərkəzi statusunu da daşıyır.

Hazırda tədrisin Azərbaycan və ingilis dillərində təşkil olunduğu universitetdə ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığı aparılır. Universitetin məzunları bu gün müxtəlif dövlət və qeyri-hökumət qurumlarında fəaliyyətlərini uğurla davam etdirirlər.

Sizi bir daha Azərbaycan Universitetinin 30 illik yubileyi münasibəti ilə səmimi-qəlbdən təbrik edir, ən xoş diləklərimi yetirirəm!

**Hörmətlə,**

**Ceyhun Məmmədov**